# Fiziki qüsurlu şəxslərə dövlət qayğısı




***Hər il dekabrın 3-ü dünyada Beynəlxalq Əlillər Günü kimi qeyd olunur. Onun tarixi 1992-ci ildə BMT Baş Assambleyasının qəbul etdiyi qətnamədən başlanır. Əsas məqsəd əlillərin hüquqlarının müdafiəsi və təmin edilməsi, bu sahədəki problemlərə diqqət yönəltməkdir. Əlillik anadangəlmə, yaxud sonradan xəstəlik və ya bədbəxt hadisə nəticəsində yaranmış fiziki və ya əqli çatışmazlıqdır. Əlilliyi olan adam şəxsi və ictimai həyatda öz işlərini fiziki və ya ruhi cəhətdən, anadangəlmə və ya sonradan meydana gələn hər hansı xətadan qaynaqlanaraq görə bilməyən insandır.***

Azərbaycan dövləti əlilliyi olan insanların hüquqlarını müdafiə etməyi və onların cəmiyyətin ayrılmaz bir hissəsi kimi fəaliyyət göstərməsini dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirib. Bu istiqamətdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi mühüm rol oynayır. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar və böyüklərin reabilitasiyası, onların təhsil, məşğulluq və ictimai həyatda bərabər imkanlardan yararlana bilməsi üçün Komitə tərəfindən davamlı tədbirlər həyata keçirilir. Həmin tədbirlər arasında bu insanların cəmiyyətə inteqrasiyasını təmin edən layihələr, onların ünsiyyət qabiliyyətlərini inkişaf etdirən proqramlar və sosial dəstək mexanizmləri xüsusi yer tutur. Məsələn, əlilliyi olan uşaqlar üçün təşkil olunan mədəni tədbirlər, incəsənət sərgiləri və idman yarışları onların özlərinə inamını artırır, cəmiyyətdə layiqli yer tutmalarına şərait yaradır.

Fiziki məhdudiyyətli insanların cəmiyyətdə bərabər hüquq və imkanlarla təmin edilməsi dövlətimizin sosial siyasətində mühüm yer tutur. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə bu sahəyə xüsusi diqqət yetirilib, əlilliyi olan şəxslərin sosial müdafiəsi və reabilitasiyası üçün əsaslı proqramların və layihələrin təməli qoyulub. Onun bu yanaşması dövlətimizin uzunmüddətli sosial siyasətinin əsasını təşkil edib. Bu siyasəti uğurla davam etdirən dövlət başçımız İlham Əliyev ölkədə güclü iqtisadi inkişafla yanaşı, sosial təminat və reabilitasiya istiqamətində mühüm addımlar atılmasını təmin edir. Dövlət tərəfindən bu sahədə ardıcıl və məqsədyönlü işlər görülür ki, hər bir fiziki qüsurlu insan öz potensialını reallaşdıra bilsin və cəmiyyətin tamhüquqlu üzvü kimi fəaliyyət göstərsin. Bu yanaşma Azərbaycanın inkişaf modeli üçün əhəmiyyətli bir nümunədir və digər ölkələr üçün də ilham mənbəyi ola bilər.

Statistikaya əsasən hazırda dünya əhalisinin təxminən 15 faizini fiziki məhdudiyyətli insanlar təşkil edir. Əlilliyi olan insanların 20 faizi isə inkişaf etməkdə olan ölkələrdə yaşayır. Ölkəmizdə 620 minə yaxın əlilliyi olan şəxs vardır ki, onlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əlilliyə görə əmək pensiyası və ya pensiya hüququ olmadıqda aylıq sosial müavinətlə təmin olunurlar. Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əlilliyi olan şəxslərə hərtərəfli sosial dəstək göstərilir, 18 yaşadək əlilliyi müəyyən edilmiş şəxslər də müavinətlə təmin olunurlar. Müharibə, hərbi xidmət vəzifələrini yerinə yetirərkən və ya xüsusi səbəblər ilə əlaqədar əlilliyi olan şəxslərə isə xüsusi diqqət yetirilir. Orqanizmin funksiyalarının 81-100 faiz pozulması səbəbilə I dərəcə əlilliyi olan şəxslərə pensiya və ya müavinətlə yanaşı, Prezidentin aylıq təqaüdü də təyin olunur. Bundan əlavə, orqanizmin funksiyalarının eyni dərəcədə pozulduğu şəxslərə və 18 yaşadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edənlərə də Prezidentin aylıq təqaüdü ödənilir.

44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərdən sonra dövlət tərəfindən şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial təminatının gücləndirilməsi istiqamətində genişmiqyaslı addımlar atılır. Məhz bu çərçivədə, postmüharibə dövründə həmin kateqoriyadan olan insanlara 5600 mənzil və fərdi ev təqdim edilib. Ümumilikdə isə indiyədək bu rəqəm 14400-ə çatıb. Bundan başqa, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin nəqliyyat vasitələri ilə təminatı da prioritet istiqamətlərdən biridir. Postmüharibə dövründə onlara 324 avtomobil təqdim olunub. Ötən illər ərzində isə bu göstərici 7500-dən çox olub. Əslində bu statistika Azərbaycanın dövlət siyasətində şəhid ailələri və müharibə iştirakçılarına göstərilən qayğının bariz nümunəsidir. Bu yanaşma həm onların sosial müdafiəsini təmin edir, həm də bu qəhrəmanların xidmətlərinin yüksək qiymətləndirildiyini bir daha göstərir.

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə 2021-ci ilin oktyabrında açılan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi əlilliyi olan şəxslər və digər həssas qruplar üçün yaradıcı potensiallarını inkişaf etdirmək baxımından mühüm bir platformaya çevrilib. Mərkəz fəaliyyət göstərdiyi müddətdə əsas hissəsini əlilliyi olan şəxslərin təşkil etdiyi 470 benefisiara müxtəlif yaradıcılıq istiqamətləri üzrə təlim, sosial-pedaqoji və psixoloji xidmətlər təqdim edib. Heydər Əliyev Fondunun həyata keçirdiyi sosial layihələr çərçivəsində isə ölkənin 3 bölgəsində əlilliyi olan şəxslər üçün Regional İnformasiya Mərkəzləri yaradılıb. Bu mərkəzlər İKT vasitəsilə onların məlumat əldə etmək və biliklərini artırmaq imkanlarını genişləndirmək məqsədinə yaradılıb. Bu təşəbbüslər sosial inteqrasiyanı və yaradıcılıqla bağlı imkanların artırılmasını dəstəkləyərək həmin şəxslərin cəmiyyətdə fəal iştirakını təmin edir.

Dövlətin bu sahədə atdığı ardıcıl addımlar hər kəsin layiqli həyat şəraiti təmin edilməsinə yönəlmişdir. Beynəlxalq Əlillər Günü yalnız bir təqvim günü deyil, həm də cəmiyyətin vicdanını oyadan, onun məsuliyyətini xatırladan bir çağırışdır. Bu gün hər birimizi əlilliyi olan şəxslərin həyatını yaxşılaşdırmaq üçün nələr edə biləcəyimizi düşünməyə, onların rifahına töhfə verməyə çağırır. Cəmiyyət olaraq onların yanında olmaq, dəstək vermək, həyatlarını daha asan və mənalı etmək hər birimizin borcudur.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**

Respublika .- 2024.- 3 dekabr (№ 266).- S.11.